# DİNİN SOSİAL XARAKTERİNƏ TƏSİR EDƏN FAKTORLAR VƏ DİNİ EKSTREMİZM

***i.f.d., dos. Mübariz Camalov,***
*Azərbaycan İlahiyyat İnstitutunun prorektoru,*
*İslamşünaslıq kafedrasının müəllimi*
mubarizcamalov@ait.edu.az

**XÜLASƏ**

Din tarix boyunca insanın fərdi və ictimai həyatında mövcud olmuşdur. Bu, dinin sosial xarakterinin açıq göstəricisidir. Din ilə insanın bu yaxın münasibəti dinin insan və cəmiyyət üzərində təsiri olduğu kimi, sosial hadisələrin də dinə təsiri müşahidə olunmuşdur. Bu məqalədə sosial dəyişiklik, qloballaşma, modernizm və dünyəvilik kimi faktorların dinə təsiri və bunun nəticəsində dindar cəmiyyətlərin göstərdiyi reaksiyalar tədqiq olunur. Dinə təsir edən bu faktorlar bir çox hallarda ekstremist cərəyanların yaranmasına və ya güclənməsinə səbəb olur. Belə ki, dəyişiklik həmişə birmənalı qarşılanmır. Dəyişikliyi yox olma kimi görənlər dəyişiklik qarşısında dinin köklərinə daha çox bağlanma yolunu seçirlər. Bu isə radikalizmə və sonrakı mərhələdə ekstremizmə aparıb çıxarır. Buna görə də tarixə nəzər saldıqda, dini ekstremizmin dəyişiklik zamanlarına təsadüf etdiyini görmək mümkündür. Bütün bunlar qarşısında dinin, yaxud dindar cəmiyyətlərin fərqli mövqelər tutduğunun şahid oluruq. Bu isə öz növbəsində, müxtəlif dini cərəyan və anlayışların yaranmasına səbəb olur. Bu cərəyan və anlayışları, ümumilikdə, ənənəyə bağlananlar və yenilik axtarışında olanlar olmaqla iki qismə ayırmaq mümkündür. Ənənəçi yanaşmanın müxtəlif təzahürləri olmaqla birlikdə radikal cərəyanların buradan bəsləndiyini demək mümkündür. Əsasən radikalizm dəyişikliklər qarşısında kökə bağlanmağı çıxış yolu olaraq seçməkdir. Bu isə bəzi hallarda ekstremizmə gətirib çıxarır. Beləliklə, sosial dəyişiklik-ənənəçilik-radikalizm-ekstremizm xəttinin səbəb-nəticə zəncirində formalaşmasından danışmaq mümkündür.

**Açar sözlər:** *sosial dəyişiklik, qloballaşma, dünyəvilik, modernizm, radikalizm, ekstremizm.*

## Giriş

İnsan sosial varlıq olub, digər insanlarla birlikdə cəmiyyət halında yaşayır. Bu, insanın xarakterik xüsusiyyətlərindən biridir. İnsanın sosial varlıq olması onun dinə ehtiyacını daha gücləndirir. Din sosial təsiri baxımından böyük gücə malikdir. İnsanın bu xüsusiyyətinə bağlı olaraq tarix boyunca, demək olar ki, bütün cəmiyyətlər müəyyən inanc sistemini mənimsəmiş və dini həyat yaşamışlar (Tümer 1995, 137). Bəzi dövrlərdə dinə inananların sayı azalsa da, bəşəriyyət tarixin heç bir dövründə dindən tamamilə ayrılmamışdır. Din hər bir cəmiyyətin mədəniyyətindən gündəlik həyatına, iqtisadi nizamından sosial quruluşuna, ailə həyatından əxlaqi dəyərlərinədək həyatın bütün sahələrində mövcud olmuşdur.

İnsanın həyatında dinin təsiri o qədər geniş və dərindir ki, dünyaya gələn uşağa ad qoyulmasından ölən insanın dəfn edilməsinədək bütün mərhələlərdə dinin yerini görmək mümkündür. Dini sosial bir fakt kimi düşünsək, cəmiyyətdə bu qədər təsirli və geniş yayılmış ikinci bir qurum görmək mümkün deyil. Dinin sosial həyatda bu şəkildə təsirli olmasının səbəblərindən biri, əsasən, bir inanc məsələsi olmasına baxmayaraq sadəcə, insanın qəlbində yaşamamasıdır. Əksinə din fərdin daxili aləminə yerləşdikdən sonra, bəşəri münasibətlər yolu ilə obyektiv xüsusiyyət qazanar və sosial münasibətlərdə təzahür edərək real həyatda öz yerini tutar. Fərdlərin düşüncə və hissiyyatlarını bölüşmələri yolu ilə baş verən bu proses insanların söz və davranışlarında özünü göstərər. Beləliklə, din sosial həyata təsir etməyə başlayar (Akyüz 2012, 43-44; Keskin 2004, 8; Günay 1991, 99).

## Sosial dəyişiklik

Sosial münasibətlərdəki dəyişikliklərə “sosial dəyişiklik” deyilir. Başqa sözlə, sosial dəyərlərdə, sosial qurumlarda və fərdi münasibətlərdəki dəyişikliklər sosial dəyişiklikdir. Dinin sosial təbiətinə təsir edən faktorlardan biri, bəlkə də birincisi, sosial dəyişiklikdir. Modern dövrün öncəsində sabitlik, durğunluq və sükunət kimi dəyərlər böyük əhəmiyyət kəsb edirdi. Fərd və cəmiyyətin nəzərində mütləq, dəyişməyən və ümumbəşəri olanın qiyməti yüksək idi. Buna görə də yeni və yenilənmə kimi məfhumlar həmişə yadırğanırdı. Modernizmlə birlikdə çarx tərsinə dönməyə başladı. Davamlı olaraq yenilənən, hər an dəyişən və sabit olmayan rəvac tapmağa başladı. Hər şey dəyişirsə, sosial həyat da dəyişməlidir.

Sosial dəyişiklik gündəlik həyatdakı dəyişiklik anlayışından və ya digər dəyişiklik növlərindən fərqlidir. Sosial dəyişikliyin, ən azı, üç xüsusiyyəti mövcuddur. Bunlar 1. Zaman kəsiyi: sosial dəyişiklik müəyyən bir zaman kəsiyinə bağlıdır. 2. Fasiləsizlik/davamlılıq: sosial dəyişiklik fasiləsiz olmalı-

dır. 3. Kollektivlik: sosial dəyişiklik kollektiv bir fakt olub, bütün cəmiyyət, yaxud cəmiyyətin böyük qismi əsasında meydana çıxar. Sosial dəyişiklik tarixin bütün dövrlərindəki cəmiyyətlərdə mövcud olmuşdur (Harman 2007, 102-103). Sanki canlı bir orqanizm kimi qəbul edilən cəmiyyətin dəyişməz və sabit qalması da mümkün deyil. Bu həqiqəti "Rəd" surəsinin 11-ci ayəsi belə ifadə edir: `(İnsan üçün) onu öndən və arxadan təqib edənlər (mələklər) vardır. Onu (insanı) Allahın əmri ilə qoruyurlar. Hər hansı bir tayfa öz tövrünü (nəfsində olanları) dəyişmədikcə (pozmadıqca), Allah da onun tövrünü (onda olanları, onun əhvalını) dəyişməz. Əgər Allah hər hansı bir qövmə bir pislik yetirmək istəsə, onun qarşısı heç cür alına bilməz və Ondan başqa onların heç bir hamisi də olmaz`. Buradan çıxış edərək insan təbiətindən irəli gələn dəyişiklik arzusu ilə ilahi əmrlər toplusu olan dinin tarix boyunca qarşılıqlı təsirindən danışmaq olar. Hətta dinlərin yaranma tarixinə diqqətlə baxdığımız zaman bu dövrlərin çox böyük sosial dəyişiklik proseslərinə təsadüf etdiyini görürük. Böyük sosial dəyişikliklərin ictimai böhranlarla birgə təzahürü dinin ictimai həyatda çıxış yolu olduğunu da göstərir (Harman 2007, 109).

Ümumiyyətlə, ictimai hərəkatların əsas hərəkətverici gücü sosial dəyişiklikdir. Cəmiyyət bütöv bir varlığa sahib olduğu üçün onu meydana gətirən ünsürlərin bir-birinə təsiri də qaçılmazdır (Öz 2014, 196). Ümumiyyətlə, sosial dəyişiklik bir cəmiyyətin quruluşunun, bu quruluşa bağlı müəyyən ünsürlərin və cəmiyyət fərdlərinin funksiyalarının dəyişməsidir. Sosial dəyişiklik ilə dinin əlaqəsinə baxdığımız zaman isə burada daha mürəkkəb bir münasibətin olduğunu görürük (Sırma 1991, 13). Bu mürəkkəbliyin əsas səbəblərindən biri din və sosial dəyişikliyin qarşılıqlı təsiridir. Buradakı qarşılıqlı təsirlənmənin mürəkkəbliyi bəzən hansının təsirləyən, hansının təsirlənən olduğunun anlaşılmamasından və ya bunun son dərəcə çətin olmasından irəli gəlir.

Bütün dinlərdə sosial dəyişikliklər dinə təsir etmişdir. Köçəri həyatdan oturaq həyata, kiçik şəhər dövlətlərindən böyük imperiyalara və feodal quruluşdan sənaye dövrünə keçən cəmiyyətlərdəki dinlər bu böyük hadisələrdən öz nəsiblərini almışlar (Harman 2007, 109). İslam tarixinə baxdığımız zaman ən böhranlı dövrlərdə dini həyat və anlayışda dəyişikliklər olmuşdur; məsələn: üçüncü xəlifə Həzrət Osmanın qətli ilə başlayan məlum hadisələr İslam dünyasında bu gün də davam edən xaricilik, əhli-sünnə və şiə məzhəblərinin meydana çıxmasına təsir etmişdir. Dövlət başçısının üsyankarlar tərəfindən qətl edilməsi, müsəlmanların bir qrupunun qanuni xəlifəyə baş qaldırması və nəhayət, İslam tarixində ilk dəfə müsəlmanın müsəlmana qılınc çəkməsi dini anlayışa ciddi və köklü təsir edən böyük hadisələr olmuşdur (Fığlalı 1972, 219-247).

Burada sosial dəyişikliyin dinə, yaxud dinin sosial dəyişikliyə təsirindən danışarkən dinin sosial dəyişikliyin qarşısını alma xüsusiyyətinə də toxunmaq

lazımdır. Qeyd etmək lazımdır ki, dinin ictimai funksiyası olmasına baxmayaraq, onu digər sosial fakt və hadisələrdən ayırmaq lazımdır. Bir çoxlarına görə, dinə sosial bir qurum kimi yanaşmaq da yanlışlıqdır. Sosial qurumlar cəmiyyət tərəfindən yaradıldığı halda, din ilahi qanunlar mənzuməsi olub, insanların dinin yaranmasında təyinedici rolu yoxdur. Hərçənd vəhylə bildirilməyən mövzularda müctəhidlərin fikirbildirmə səlahiyyət və məsuliyyətləri var, amma bunlar belə vəhylə təyin edilmiş çərçivədən kənara çıxa bilməz. Beləliklə, din sosial hadisələr nəticəsində meydana çıxan bəsit bir sistem deyil. Bununla birlikdə digər sosial qurum və hadisələr kimi ictimai dəyişikliklərdən təsirlənməsi mümkündür, təbiidir. Dinin ictimai həyata müsbət təsirinə gəlincə, bunun ən başlıcası ictimai quruluşun bütünlüyünü qorumasıdır. Dinin mühafizəkar xüsusiyyətindən irəli gələn bu funksiya cəmiyyətdə istiqrarı təmin edir, dəyərlər və normalar sistemini qoruyur və hətta bir çox hallarda cəmiyyətin ictimai strukturunu yenidən inşa edir. Bunun ən yaxşı nümunəsini İslam dininin yarandığı ilk dövrdə görmək mümkündür. Peyğəmbərin gətirdiyi ilahi dəyərlər cahiliyyə adətləri içində qalan ərəb cəmiyyətini yenidən formalaşdırmış və ərəbləri Ərəbistan yarımadasının xaricinə çıxararaq böyük dövlət qurmalarına, dünya tarixinin seyrinə təsir etmələrinə və sahib olduqları dəyərləri digər cəmiyyətlərə daşıma imkanı vermişdir (Harman 2007, 107-108; Abuzar 2011, 148).

Bütün cəmiyyətlər əxlaqi dəyərlər sisteminin davamlı və istiqrarlı olmasına ehtiyac duyur. Cəmiyyətdə sülh və əmin-amanlığın hakim olması buna bağlıdır. İctimai nəzarət adlandırılan bu sistemi hər bir cəmiyyət öz xarakteristikasına uyğun şəkildə və öz dəyərlər sisteminə əsaslanaraq meydana gətirir. Burada İslam tarixində bunun ən gözəl nümunələrindən biri olan “Axilik” təşkilatından qısa söz açmaq mümkündür. Axilik Şuluqlular dövründə qurulmuş bir qardaşlıq təşkilatıdır. Axiliyin əsas vəzifəsi iş əxlaqı qanununu yaratmaq olmuşdur. Siyasi bir hədəfi olmayan Axilik ticarət, sənaye, mədəniyyət sahələrində xidmət göstərərək, iş əxlaqını, sanki ibadət olaraq görmüş və bu ənənənin nəsildənnəslə keçməsinə xüsusi diqqət etmişdir. İş həyatına yeni başlayanlar ustadlarının yanında həm işi, həm də dini eyni anda öyrənirdi. Axiliyin qurduğu bu ictimai nəzarət sistemi İslam dünyasının ən ağır dövrlərindən biri olan monqol istilası zamanı cəmiyyət dəyərlərini qorumuş və maddi məğlubiyyətə baxmayaraq, mənəvi varlığını mühafizə etmişdir. Beləliklə, din ictimai dağılmanın qarşısını almada çoxsaylı nümunələrdən birini göstərmişdir (Tekin 2006).

Təkrar sosial dəyişiklik məsələsinə qayıdaraq qeyd edək ki, qloballaşma dövrü ilə birlikdə bu dəyişiklik daha da sürətlənmişdir. Əslində, bu mərhələdə sosial dəyişikliyi qloballaşma ilə birlikdə düşünmək lazımdır. Qloballaşma bir tərəfdən maddi genişləmə və yayılma olduğu kimi, digər tərəfdən də dəyərlə-

rin yayılmasıdır (Erkal 2003, 60). Bir cəmiyyətin sahib olduğu dəyərlər qısa müddət ərzində çoxsaylı digər dəyər sistemləri ilə üz-üzə gəlir. Bu qarşılaşma, xüsusilə mühafizəkar cəmiyyətlərin daha çox təsirlənməsi ilə nəticələnir. Proses o qədər sürətlə baş verir ki, ictimai dinamiklərin buna cavabı həmişə gecikir. Qloballaşmanın əsas xüsusiyyətlərindən biri də məhz sürətdir. Sənayeləşmə və ardından texnologiyanın yüksək inkişafı əsrimizi sürət əsrinə çevirmişdir. Bu da sosial dəyişikliyin sürətini artırır. Dindar cəmiyyətlərin mühafizəkar xüsusiyyəti bu sürətli dəyişikliyin ən çox dinə təsir etməsinə gətirib çıxarır.

## Qloballaşma

Qloballaşma coğrafiyanın sosial və mədəni tənzimləmələrlə həbs etdiyi məhdudiyyətlərin azaldığı, insanların bu azalmanı getdikcə daha çox hiss etməyə başladıqları sosial prosesdir. Qloballaşma XX əsrin sosial, mədəni, iqtisadi, siyasi və dini cəhətləri olan ən böyük hadisələrindən biridir (Yeşilyurt 2002, 133; Topal 2003, 282). Qloballaşmanın tərifi, mahiyyəti, faydası və zərəri haqqında bir-birinə zidd olacaq dərəcədə müxtəlif fikirlər var. Bəzən bütün problemlərin həll yoluna “qloballaşmadır” deyilir; bəzən isə tam əksinə, bütün dərdlərimizin mənbəyidir söylənilir. Tək həqiqət isə qloballaşmanın dünyamızın qaçılmaz qədəri olmasıdır (Kılavuz 2002, 192). Dayandırılması mümkün olmayan güclü bir axardır – hər şeyi içinə çəkən, hər şeyin can atdığı bir axar.

Qloballaşmanın əsas hərəkətverici gücləri kapitalizm və yüksək texnologiya ilə asan əldə olunan bilikdir. Kapitalizmin təməlləri bir neçə əsr əvvəl atılsa da, sürətlə inkişaf edib yayılması XX əsrdə baş vermişdir. Kapitalizm hər şeyin pul ilə alınıb-satıldığı bir dünya nizamı gətirmişdir. Bu da bütün dəyərlərin ucuzlaşmasına gətirib çıxarır. Bunun üzərinə sonsuz bilik əldə etmə imkanı əlavə edildikdə isə hər şey daha da adiləşir. Fərqliliklər aradan qalxır və təktipli cəmiyyət modelləri yaranır. Əksər hallarda dünyəvi xüsusiyyətlər daşıyan bu cəmiyyətlərin müqəddəslə əlaqəsi qopduqca, din birləşdirici və qoruyucu funksiyasını da itirir (Ortiz 2003, 98).

Qloballaşma haqqında aparılan çoxsaylı tədqiqatlar onun müxtəlif sahələrlə əlaqəsini göstərir. Bununla birlikdə qloballaşmanın əsas xüsusiyyəti mədəni bir hərəkat olmasıdır. Bu hərəkat bütün sahələrdə təsirli olmaqla yanaşı, ən çox dinə təsirini göstərmişdir. Liberal-darvinist dünyagörüşü təqdim edən qloballaşmanın ziddiyyət təşkil etdiyi sahə din sahəsidir. Mühafizəkar cəmiyyətlərdəki fərdlər keçmişdən gələn yerli dəyərlərə əhəmiyyət verib qoruduqları halda, qloballaşma insanları lokal kimliklərindən uzaqlaşdıraraq üst, müştərək və əksər hallarda sekular kimliyə çağırır. Bu çağırışa verilən

cavab isə öz kimliyindən qopmaq istəməyən fərdlərdən meydana gələn kütlələrin fundamentalist və radikal reaksiyası olur (Düzgün 2003, 140-141; Richards 2003, 3).

## Modernizm

İslam dünyası tarix boyunca üç böyük xarici istila ilə qarşılaşmışdır. Bunlardan birincisi yunan fəlsəfəsi, ikincisi monqol işğalı, üçüncüsü isə müasirləşmədir. Bu qarşılaşmalardan ilki olan yunan fəlsəfəsi İslam dünyasının sağlam ictimai, siyasi, dini, iqtisadi və elmi quruluşu hesabına absorbsiya edilmişdir. İkinci qarşılaşma olan monqol işğalı fəlsəfi və mədəni xüsusiyyət daşımadığna görə, böyük fiziki dağıntılara səbəb olsa da, qalıcı təsiri olmamışdır. Tarixin gördüyü ən böyük dağıdıcı işğallardan biri olmasına baxmayaraq, fəsadlarının aradan qaldırılması çətin olmamışdır. Üçüncü qarşılaşmaya gəlincə, bu, digərlərindən çox fərqli olmuşdur. İslam dünyasının "məğlubiyyəti" ilə nəticələnən bu qarşılaşmada İslam dünyasının bütün cəhətlərdən zəif olmasının rolu böyük olmuşdur (Sinanoğlu 2003, 80). Modernizmin İslam dünyasına təsirli formada daxil olmasından sonra bu yeni tərzə qarşı rəftarın müəyyənləşdirilməsi xeyli çətin olmuşdur. Demək olar ki, həyatın bütün sahələrinə yeniliklər gətirən modernizm "yenilənmə" məsələsini ən mühüm problem kimi önə çıxarmışdır. Bununla yanaşı, "dəyişiklik" və "müasirləşmə" kimi məfhumlar geniş işlənməyə başlansa da, "yenilənmə" sözü əslə bağlı qalmağı da əhatə etdiyi üçün daha tutarlı görünür. Əslində, modernizmlə birlikdə daha çox önə çıxan bu kimi məfhumların hər biri "başqalaşma" mənasını daşıdığı üçün İslam dünyasında hər zaman ehtiyatla qarşılanmışdır. "Yenilənmə", yaxud "dəyişiklik" məfhumlarının "başqalaşma" mənasını da daşıması müsəlman üçün təhlükəli görünür və bəlkə də görünməlidir. Baxmayaraq ki, dəyişiklik və yenilənmə İslama yad məfhumlar deyil, hətta vəhy buna dair ciddi imkanlar daşıyır, ancaq modernizmlə gələn dəyişiklik və yenilənmənin mənbəyi "kənardan" olduğu üçün buna qarşı ehtiyatla yanaşılması təbiidir. Halbuki, İslamın ilk çağlarından bu tərəfə fəthlərlə birlikdə gələn yeni şərtlərə qarşı müsəlmanların "yenilikçi" yanaşdığını açıq olaraq demək mümkündür (Özsoy 1997, 8). Yenə də İslam dünyasının modernizmlə qarşılaşması, yaxud modernizmin İslam dünyasına daxil olması modernist anlayışın ortaya çıxmasına təsir göstərsə də, hər şey axarında davam etməmişdir. İslam dünyasının ənənəvi quruluşu müasirləşməni həzm edə bilməzdi. Aradakı əsaslı fərqlər müasirləşmənin bir problemə çevrilməsinə gətirib çıxarmışdır. Bunun nəticələrindən biri də İslam dünyasının özünəinamını itirməsi və bütün dini dəyərləri rədd etmə mənasına gələn pozitivizmə təslim olması olmuşdur. Bu təslimiyyətin səbəbi isə teoloji və qneseoloji məğlubiyyət deyil, İslam

dünyasının yenidən əslə qayıtmasındakı uğursuzluq idi. Pozitivizm din-cəmiyyət münasibətində dinin cəmiyyətə təsirini azaltmaq və ya yox etmək arzusundadır. Bunu bacardığı təqdirdə ictimai quruluşun əsasını əqli dəyərlər üzərinə yerləşdirməsi mümkün olacaq. İlk baxışda cazibəli görünən bu cəhd mühafizəkar və ənənəvi cəmiyyətlərin əsas xarakteristikası ilə ziddiyyət təşkil edir. Bu da öz növbəsində, əslə qayıdış duyğusunu canlandıraraq bir çox hallarda fundamentalist yanaşmalara həyat verir (Akgül 1991, 62-66).

**Dünyəvilik**

"Dünyəvi" sözü Qərb dillərindəki "laique" və "secular" sözlərinin dilimizdəki qarşılığı kimi işlədilir. Bu sözlərin ümumilikdə mənası "ruhani olmayan, dini olmayan, xalqa və dünyaya aid olan" deməkdir. Dünyəvi dövlət deyildikdə, əsasən, dövlətin quruluş və idarəsində dini dəyərlərə əsaslanmamaq, dövlət idarəsinin mənbəyinin xalqa aid olması və dövlətin bütün inanc və inancsızlıqlara eyni məsafədə durması nəzərdə tutulur. Bir idarəetmə forması kimi dünyəvilik inanc, ya da inancsızlıq azadlığıdır. Yəni insanlar inanc, ya da inancsızlıq səbəbindən qınanmamalı, yaxud dinlərini istədikləri kimi yaşaya bilməlidir. Bunu təminetmə prinsip olaraq dövlətin məsuliyyətindədir. Demokratik həyat tərzi, din və vicdan azadlığı prinsipi qanunun himayəsi altındadır. Dünyəvilik dövlətin vətəndaşlarını müəyyən bir dinə məcbur etməməsi olmaqla yanaşı, dövlətin dindən və dindardan uzaq durması da deyil. İnsan həyatının bütün sahələrini qanunlarla tənzimləyən dövlətin, vətəndaşlarının dini həyat yaşamaları üçün lazımi tədbirlər görməsi şərtdir. Beləliklə, dünyəvilik din düşmənliyi, dini həyatı qadağan etmə və din əleyhdarlığı kimi başa düşülməməli, əksinə, dini həyatın dövlətin təminatı altında olması kimi anlaşılmalıdır.

Məlum olduğu kimi, dünyəvilik bir idarəetmə forması kimi ilk dəfə Fransada özünü göstərmiş və dövlət idarəsinin kilsənin nəzarətindən çıxması ilə nəticələnmişdir. Qeyd etmək lazımdır ki, bu hərəkat dinə qarşı deyil, kilsəyə qarşı olmuşdur.

Dünyəviliyin ilk ağla gələn tərifi dövlət idarəsində dini dəyərlərin yer almamasıdır. Bir az daha diqqətlə baxıldığı zaman köklərin dərində və ilk baxışda görünəndən mürəkkəb olduğu aydınlaşır. Əvvəla dünyəviliyin tarixi izini təqib etdiyimiz zaman yolumuz Renessana qədər gedib çıxır. Renessans Orta əsrlər Qərb dünyasının dinmərkəzli olmaqdan çıxıb insanmərkəzli olmağa başlamasıdır. Davam edən müddət ərzində insan ağlının əsas götürüldüyü dəyərlər sistemi ictimai həyatı formalaşdırmışdır.

Şübhəsiz, dünyəvilik ateizmlə yaxından əlaqəlidir. Mike Kingin yazdığı "Secularism: The Hidden Origins of Disbelief" adlı əsərində dünyəviliyin

inancsızlıqla yaxından əlaqəli olduğu göstərilir. Bununla yanaşı dünyəviliyin qatı ateizmdən liberal nizama qədər müxtəlif formalarının olduğunu da unutmamaq lazımdır. Dünyəvilik fərdi həyatdan insan psixologiyasına, sosial həyatdan hüquqadək insan həyatının bütün sahələrini əhatə edir (King 2007). Xüsusilə müasir dövrdə dünyəvi dövlət anlayışlarında dinə olan münasibət müsbət mənada dəyişmişdir. Hüquq sistemlərinin dinə olan münasibətinin dəyişməsi dünyəvi sistemlə dini cəmiyyət arasındakı ziddiyyəti daha da mülayimləşdirəcək. Bu həm dünyəvi idarəetmə anlayışına sahib olan dövlətlərin, həm də mühafizəkar cəmiyyətdəki fərdlərin faydasınadır.

## Fundamentalizm-ekstremizm-radikalizm

“Ekstremizm” hər hansı bir sahədə həddi aşmaq, mötədillikdən uzaqlaşmaq və ifratçılıqdır. Ekstremizmin siyasi, iqtisadi, dini və digər formalarda özünü göstərdiyinə şahid olmaq mümkündür; məsələn: “siyasi ekstremizm” deyildikdə hər hansı bir qrupun öz siyasi düşüncələrini ifrata varan vasitələrlə həyata keçirməsi başa düşülür. Dini ekstremizm də məhz bu mənailə əlaqəli olaraq, dinin ifrat dərəcədə yozumlanması və yaşanmasıdır. Ekstremizm bundan bir addım daha irəli daşınaraq, dinin inanc və prinsiplərinin başqalarına qarşı zorakılığa imkan verməsi şəklində də başa düşülür. Burada ekstremizmin təhlükəsi zorakılığın başqa din mənsublarına qarşı ola biləcəyi kimi, dindaşlara qarşı da olmasıdır (Guiora 2009).

Əslində, “ekstremizm" terminini “fundamentalizm” və “radikalizm" terminləri ilə birlikdə açıqlamaq lazımdır. Bu terminlər əksər hallarda bir-birinin yerində istifadə olunsa da, əslində, fərqli, amma əlaqəli, yaxud müəyyən səbəb zənciri ilə bağlıdır. Radikalizm və ekstremizmi yaradan amillərin başlıcasının fundamentalizm olduğunu qəbul etsək və ya fundamentalizmin radikalizm və ekstremizmin başlanğıc forması olduğunu fərz etsək, mövzunu fundamentalizmlə başlatmaq yerində olar.

Bütün terminlər meydana çıxdığı sosial və siyasi mühitlə yaxından əlaqəli olur. Fundamentalizmin qərbmənşəli bir termin olmasına baxmayaraq, tarixi reallıq kimi İslam dünyasında həmişə mövcud olmuşdur. Buna görə də İslamla bağlı olaraq “fundamentalizm” termini həm Qərb ədəbiyyatında, həm də İslam dünyasındakı müəlliflər tərəfindən işlədilir. Bəzən eyni mənada, bəzən də yaxınmənalı terminlər kimi istifadə olunan “radikalizm” və “fundamentalizm” bir-biri ilə sıx əlaqəlidir. Buna görə də dini radikalizmdən danışarkən “dini fundamentalizm” məfhumundan istifadə etmək qaçılmazdır. Dini fundamentalizmin mənası terminin yeniliyi və fundamentalizm fenomeninin mürəkkəbliyi üçün hələ də tam olaraq aydınlığa qovuşmamışdır. Buna bağlı olaraqda əksər hallarda bu terminlərin yanlış istifadə olunmasının şahidi

oluruq. “Fundamentalizm” sözü ingilis dilində “təməl, əsas, prinsipial” mənasına gələn “fundamental” sözündən törəmiş, latın dilindəki “fundament”dən alınmışdır. Tarixi bir fenomen kimi, fundamentalizm XIX əsrin sonu XX əsrin əvvəllərində Amerikada meydana gələn dini hərəkatın adıdır. Bu hərəkatı meydana çıxaran iki səbəbdən birincisi xiliazm, yəni İsanın ikinci dəfə dünyaya gəlməsi inancıdır. İkincisi isə qadının müasir dünyada dəyişən roluna qarşı fundamentalistlərin reaksiyasıdır. Protestant məzhəbinin rəhbərliyində təşəkkül edən bu cərəyan sekularizm və modernizmə qarşı mənfi mövqeyi ilə ortaya çıxmışdır. Bu yanaşmaları ilə xristianlığın dəyişməz qəbul etdikləri əsasları çoxcildli “Fundamentals” əsərin bir yerə toplamışlar. Fundamentalizmin adını bu kitablardan aldığı güman edilir (Günay 1998, 1; Kirman 2008, 276; Sezen 2008, 73). “Fundamentalizm” termini siyasi fundamentalizm, mədəni fundamentalizm kimi mənalarda işlənməklə yanaşı, dinlə əlaqələndirilərək dini fundamentalizm formasında da daha çox istifadə olunur. Bundan əlavə “dini fundamentalizm” anlayışı “dini radikalizm” və “dini ekstremizm” kimi terminlərin meydana çıxmasına səbəb olmuş və müxtəlif dini cəmiyyətlərdəki müştərək anlayışı ifadə etmək üçün istifadə edilmişdir. Çıxış nöqtəsi kimi müəyyən bir dinin müəyyən məzhəbi göstərilsə də, bu terminlər universal xarakter qazanaraq bütün din və cərəyanlardakı mühafizəkarlara aid edilmişdir. Bütün dini fundamentalist yanaşmalar müştərək xüsusiyyətlərə sahibdir.

İslam dünyasında Qərbdə olduğu kimi, fundamentalist, yaxud radikal anlayışlar eyni ilə mövcud olmasa da, “əslə qayıdış” anlayışına sahib olanlar olmuşdur. Bunların bir çoxu dini islah edərək əsl formasına qaytarmaq arzusunda olanlardır. Dini xurafatlardan təmizləmək üçün çalışanları radikal cərəyanlardan ayırmaq lazımdır. Bu axtarışlar bəzən ifrat yollara gedib çıxmışdır. Xariciliyi buna nümunə göstərmək olar. Xaricilər ilk dövrlərdə meydana çıxan ixtilafların həllində Qurana qayıtmağı və məsələni ayələrin lüğəvi mənası müstəvisində müzakirə etməyi tələb edirdilər. İlk baxışda məsum və haqlı görünən bu yanaşma zaman içərisində üsyan və qan axıdılmasına çevrilmişdir.

Əslə qayıdışa əhəmiyyət verərək bunu çıxış yolu kimi görən anlayışlardan biri də Əhli-Sünnədə zahirilərin və şiədə əxbarilərin yanaşmasıdır. Ayə və hədislərin zahiri mənaları ilə kifayətlənən bu anlayışlar islami dəyərləri müsəlmanların həyatında yenidən canlandırmaq üçün Peyğəmbərin və raşid xəlifələrinin yaxud ardıcıllığına uyğun olaraq Peyğəmbərin və imamların yaşadığı dövrə qayıtmağı istiqamət göstərirdilər. Şübhəsiz, hər bir müsəlman üçün Peyğəmbərin yaşadığı dövr idealdır. Bu dövr İslamın ən mükəmməl şəkildə yaşandığı qızıl əsrdir (Mevdudi 2011, 3). O dövrün siyasi, iqtisadi, ictimai və s. strukturu sonrakı dövrlərin cəmiyyətləri ilə uyğunluq təşkil etməz. Bu da idealla reallıq arasında toqquşmaya gətirib çıxarar.

İslam tarixindəki ehya hərəkatları da əslə qayıdışın bir təzahürü olmuşdur. Məlum olduğu kimi, ehya yenidən canlandırmaq, həyat vermək, diriltmək kimi mənalara gəlir. Dini terminologiyada isə "ehya" deyildikdə dinin xurafat və bidətlərdən təmizlənərək sələfin yaşadığı saf halına qaytarılması nəzərdə tutulur: "Ehya İslamı bidət və xurafatlardan və hər nə şəkildə olursa-olsun tərkibinə girmiş bütün xarici ünsürlərdən təmizləyərək, əsl və saf halı ilə ortaya qoymaq, "tarixi İslamdan" kənara çıxaraq "İlk Dövr İslamı" nın inanc və tətbiqlərini canlandırmaq, onu Quran və Sünnədəki orijinal şəkli ilə yenidən müəyyənləşdirib insanların istifadəsinə təqdim etməkdir" (Sönmez 2001, 25). Dinin Quran və Sünnədəki əslinin axtarışı qaçılmaz olaraq köhnəyə qayıdış və həqiqətin keçmişdə axtarışı ilə nəticələnir. Bu məfhum təcdid (yeniləmə) və ya təcəddüd (yenilənmə) terminləri ilə birləşdirildikdə, yaxud birlikdə düşünüldükdə ehya, sadəcə, keçmişə qayıdış olaraq deyil, İslamın o çağda tətbiq olunan ideal formasının günümüzə daşınması kimi də başa düşülər. Beləliklə, ehya hərəkatları özünü fundamentalist bir yanaşma olaraq büruzə vermiş və əsas məqsəd kimi də dini bidətlərdən təmizləməyi qəbul etmişdir (Kırca 1988, 32). Burada ehya hərəkatlarını meydana çıxaran saiqlər haqqında danışmaq labüddür. Bu səbəblər dəqiq müəyyənləşdirildiyi zaman ehya hərəkatlarının nəyin qarşılığı olduğu, hansı problemi həll etməyə çalışdığı və bunu nə qədər başardığı daha aydın olar.

Şübhəsiz, İslam tarixində meydana gələn ehya hərəkatları cəmiyyətdəki dəyişikliklərlə olmuşdur. Bunların başlıcası raşid xəlifələr dövründən sonra siyasi gücün təkrar cahiliyyə ənənəsi ilə birləşməsi və bunun nəticəsində dini həssaslığı olan insanların hakimiyyət qarşısında gücsüz və çarəsiz qalmalarıdır. Zaman keçdikcə, bu dəyişim yeni hərəkatların meydana çıxmasına təkan vermişdir.

Ehya hərəkatlarının "ilk dövr ehyaçılığı" və "yeni dövr ehyaçılığı" deyə ikiyə ayırmaq mümkündür (Sönmez 2001, 26). Bunlardan, xüsusilə ikincisi İslam modernizmi şəklində formalaşaraq mötədil yenilik hərəkatına çevrilmişdir. Müasirləşmə mənasına gələn "modernizm" məfhumu özündə dəyişiklik, yenilənmə, inkişaf, təkamül kimi çox sayda məna daşıyır. Buna görə də bu sözlərin bir-birinin yerinə işlədildiyinin şahidi olmaq mümkündür. Müasirləşmək üçün dəyişmək, inkişaf etmək üçün yenilənmək, yaxud təkamül etmək üçün yenilənmək zəruridir. Bu sözlərin yerini dəyişərək misalları çoxaltmaq mümkündür. İslamda "müasirləşmə" deyildiyi zaman eyni şəkildə dəyişiklik, yenilənmə, inkişaf və təkamül kimi mənalar zehində cəmləşir. Əslində, İslam dininin yaranması da bir dəyişiklik, yenilənmə, inkişaf və təkamül şəklində olmuşdur. İslam dünyası XIX əsrdə güclü Qərb mədəniyyəti ilə qarşılaşdığı zaman, bu qarşılaşmanın öhdəsindən gələ bilmək üçün dəyişikliyə və yenilən-

məyə çalışdı. Bu hərəkatlar bəzən radikal qrupların yaranmasına da imkan yaratdı (Karaman 1996, 37-39). Bununla yanaşı bu dövrün təyinedici məfhumlarından biri təcdiddir. Təcdid Əbu Davudun Sünənində yer verdiyi məşhur təcdid hədisinə əsaslanan və adını buradan alan məfhumdur. Hədisin mətni belədir: “Allah hər yüz ilin başında bu ümmətə dinini yeniləyəcək (يجدد - yucəddidu) insanlar göndərəcək” (Əbu Davud, Məlahim, 1). Hədisin güvənilən bir mənbədə yer almasına baxmayaraq, sənədi və mətni haqqında çoxsaylı ixtilaflar olsa da, İslam dünyasında yenilənmə anlayışı və buna bağlı olaraq ciddi bir ədəbiyyatın təşəkkül etdiyi həqiqətdir. Onu da qeyd etmək lazımdır ki, təcdid, yenilənmə, müasirləşmə, islamlaşma, islahat, reform və bir sıra terminin həm təkbaşına mənasının, həm də hər birinin digərləri ilə qarşılaşdırılmasında ortaya çıxan mənzərəsinin bulanıqlığı hələ davam edir.

Ehya hərəkatları dəyişən həyat şərtləri qarşısında dinin əslini və funksiyasını qorumağın bir yolu olmuşdur. Ehya hərəkatlarını meydana çıxaran əsas səbəblər bidət və xurafatların yayılması və xarici təsirlərin artmasıdır. Əxlaqi və dini pozulma dinin əsas etiqad və prinsiplərindən uzaqlaşmasıdır. Bu zaman cəmiyyətin dini həyatında həm inanc, həm də əməl baxımından bidət və xurafatların yarandığı müşahidə olunur. Bidət İslam elmləri arasında daha çox kəlam və fiqhin tədqiqat sahəsinə daxildir. Etiqadla bağlı yanlış inancların şəriətə görə doğru dəlillendirilməsi kəlam elminə aiddir. Qurani-Kərim və mütəvatir sünnəni əsas göürən kəlam elmi İslam etiqadının səhih əsaslarını qoruma vəzifəsini üzərinə almışdır. İslam dininin yarandığı ilk dövrdəki əsaslar üzərinə qalması baxımından inanc əsaslarının qorunması lazımdır. Buradakı bidət və xurafatlar İslam dininin əməl, əxlaq, fəlsəfə kimi sahələrinə də təsir edərək dini əsl mənbəyindən uzaqlaşdırır. Eyni şəkildə fiqh sahəsindəki yanlış tətbiqlər də zaman içərisində dinin sosial təbiətinə mənfi təsir göstərir (Demirci 1988, 72).

Ehya zərurətini meydana çıxaran ünsürlərdən biri də İslam dünyasında xarici təsirlərin artmasıdır. İkinci xəlifə Həzrət Ömər dövründən etibarən sürətlə davam edən fəth fəaliyyətləri qısa zamanda İslam dünyasının sərhədlərini genişləndirdi. Bunun nəticələrindən biri də müxtəlif din və mədəniyyətlərə sahib olan millətlərin İslam hakimiyyətinə daxil olması və müsəlmanların bu yad ünsürlərlə üz-üzə qalması idi. Bu qarşılaşma zamanı bir çox insan İslamı seçdi. Bununla birlikdə öz dinində qalan insanlar da aid olduqları dini və mədəniyyəti yaşamağa davam edirdilər. Beləliklə müxtəlif din və mədəniyyətlərə aid olan və İslama uyğun olmayan yanlış inanc və tətbiqlər müsəlman cəmiyyətlərinə daxil olmağa başladı (Sönmez 2001, 27).

IX əsrə təsadüf edən ən böyük xarici təsirin yunan fəlsəfəsi olduğu demək mümkündür. Əməvilər dövründə başlayan fəlsəfə ilə tanışlıq Abbasilər

dövründəki tərcümə fəaliyyəti ilə vüsət qazanmışdır. “Darul-hikmət” adlandırılan fəlsəfə məktəblərinin qurulması bu işin nə qədər çox inkişaf etdiyini göstərir. Bundan sonra İslam etiqadı fəlsəfi müstəvidə tədqiq edilməyə başlamışdır. Bu fəaliyyət İslam fəlsəfəsinin meydana çıxmasına təsir göstərməklə yanaşı bir çox problemi də özü ilə birlikdə gətirmişdir.

Burada məsələnin başqa bir aspektinə yönələrək, prosesin necə işlədiyinə nəzər salaq. Fundamentalizm, əsasən mənfi məna yüklü deyil. Kökəqayıdış kökün sağlam olması, kökəbağlılıq, təkrar əsl mahiyyətini qazanma kimi mənaları ehtiva edir. Bunlar heç kimin etiraz etməyəcəyi dəyərli məfhumlardır. Bu yanaşma daha da kəskinləşdiyi zaman məsələnin məğzi dəyişir; məsələn: cihad İslam dininin əhəmiyyətli məfhumlarından biri olub ibadətlərdən sonra adı çəkilən bir fəaliyyətdir. Elə bir fəaliyyət ki, insanın nəfsi ilə mübarizəsindən vətənini qorumasınadək geniş məna sahəsinə sahibdir. Halbuki radikalist anlayışda olanlar bu məna çalarları içərisindən silahlı mübarizə mənasına daha çox üstünlük verirlər. Bunun ifrat səviyyəsində isə sadəcə, silahlı mübarizə əsas götürülərək din müxtəlifliyi qoyulmadan özündən fərqli düşünən hər kəs rəqib seçilir. Bunlar tətbiq edilməyə başlandığı andan etibarən, terrorizm başlayır. İslamın müharibə hüququ ilə bağlı hökmləri, Quran və Sünnədəki bənzər ayələr cihad mənasına yozumlanır. Bu da nəticə etibarilə cihadın və hətta terrorun İslamla eyniləşməsinə gətirib çıxarır. Çox təəssüf ki, xüsusilə Qərb dünyasında İslam terror dini kimi anlaşılır (Hamid 2001, 35). Halbuki terrorizmin dini, irqi, vətəni olmaz. Buna görə də terrorizmin dindən sui-istifadə etdiyi iddiasını kənara qoyaraq, bunun necə baş verdiyinə baxmaq lazımdır. İslamın müqəddəs mətnləri olan Quran və Sünnədəki döyüşlə bağlı nəslərin əksəriyyətinin müharibə qanunları ilə bağlı olduğu hamıya məlumdur.

## Ekstremizmə qarşı mübarizə

İqtisadiyyat və Sülh İnstitutunun 2015-ci ildə nəşr etdiyi Qlobal Terrorizm İndeksi (GTI) hesabatına görə, son 15 ildə 61 min terror hadisəsində, təxminən, 140 min insan həyatını itirmişdir (http://economicsandpeace.org /wp-content/uploads/2015/11/Global-Terrorism-Index-2015.pdf). Bu terror hadisələrinin böyük hissəsi müsəlmanlar və ya İslam ölkələri ilə bağlıdır. Bu, XXI əsrin ən böyük təhdidinin dini terrorizm olduğunu göstərir (Guiora 2009; Wiktorowicz 2005; Сафин 2009, 155). Məsələyə İslam dini baxımından yanaşsaq, bir insanı haqsız yerə öldürməyi bütün bəşəriyyəti öldürməyə bərabər görən bir dinin mənsubları necə olur ki, bu qədər qan tökür? Bütün bunların İslamla bağlı olması qəbuledilməzdir (Esposito 2002). Müsəlman cəmiyyətində yetişən gənclər həyatlarında heç cinayət işlətmədiyi halda, bir anda din adına insan öldürməyə başlayırsa, müsəlmanlar bundan məsuldurlar. Terro-

ristlərin müsəlman olmadıqlarını demək kifayət deyil. Bu terroristlər müsəlman cəmiyyətlərində yetişən fərdlərdən meydana gəlirsə, bunun məsuliyyətindən boyun qaçırmaq olmaz.

Məşhur terrorizm mütəxəssisi Dr. John Horgan 20 ilə yaxın müddət ərzində dünyanın bir çox yerində apardığı tədqiqatlar nəticəsində belə qərara gəlmişdir ki, "Nə üçün?" sualının cavabını tapmaq mümkün deyil. Yəni, terrorist qruplara qoşularaq, müxtəlif, ideyalar uğurunda həyatını qeyb edən, yaxud başqalarının həyatına qəsd edən insanlar bu işi nə üçün etdiklərinə tam cavab verə bilmirlər. O zaman bu insanların necə terrorist olduqlarına baxmaq lazımdır. Terrorizmə qarşı mübarizə yolu da bu sualın cavabına bağlıdır. Sıravi bir vətəndaşın qısa müddət ərzində radikallaşması və terroristə çevrilməsi üzərində düşünmək lazımdır. Burada ekstremizmi meydana çıxaran səbəblər əhəmiyyət qazanır. Bunlardan ən əhəmiyyətliləri aşağıdakılardır:

### 1. Dinin həqiqətini anlamamaq.

Həzrət Peyğəmbər bir hədisində belə buyurur: "Şübhəsiz, bu din asandır. Kim bu dini çətinləşdirsə, altında əzilər. Orta bir yol tutun və dini ən uyğun şəkildə yaşayın" (Buxari, İman, 29). Müasir dövrdə dinlə bağlı problemlərdən biri "məlumat çirkliliyi"dir. Virtual aləm məlumatı sürətlə əldə etməyə imkan verir. Bu, ilk baxışda müsbət haldır. Hamı öyrənir. Amma nəyi, hansı mənbələrdən? Bir düyməyə toxunmaq bilik selinin axıb-gəlməsi üçün kifayətdir. Bu qədər geniş məlumat bazası içərisindən doğru biliyi əldə etmək, həqiqətən də çox çətindir. Dini peşə-ixtisas təhsili olmayanlara hansı məlumatlar təqdim olunursa, onu qəbul edir. İnsanı hidayətə çatdırmalı olan bilik, bəlkə də bəzi hallarda məhz zəlalətin səbəbi olur. Beləliklə, bir çox hallarda dinin əsası, tələbləri, məqsədləri "qabıq"ın altında qalır. Belə bir dini təlim alan insanın dindən uzaqlaşması qaçılmazdır.

### 2. Quran və Sünnənin zahiri mənasını əsas götürmək.

Quran və Sünnənin zahiri mənasına görə əməl etmə cərəyanı olan zahirilik bu mənbələrin sonsuz təvilinin və yozumunun qarşısını almaq məqsədilə meydana çıxmışdır. Bu anlayış ifrat yozumların gətirdiyi ciddi və əsaslı problemlərin qarşısını almaq üçün uyğun bir seçim kimi görünə bilər. Dini mənbələrin zahirinə görə hökm verməyin yaratdığı problemləri də kiçik görmək olmaz. İslam tarixində ilk zahiri anlama hadisəsi Həzrət Peyğəmbər dövründə baş vermişdir. "Bəqərə" surəsinin 187-ci ayəsinin "... sübh açılınca, ağ sap qara sapdan fərqlənincəyədək yeyib için; sonra gecəyədək orucunuzu

tamamlayın...” qismindəki ”ağ və qara sap” sözlərini zahiri mənada başa düşən Ədiy ibn Hatəm yastığının altına iki sap qoyaraq bunları bir-birindən seçə bilmədikdə məsələni Peyğəmbərimizə danışdı. Peyğəmbərimiz də buradakı “ağ” və “qara” sapdan məqsədin gecə ilə gündüz olduğunu deyərək, ayənin məcazi mənada olduğunu bildirmişdir. Başqa bir hadisədə də Peyğəmbərimiz Bəni-Qüreyzəyə göndərdiyi səhabələrə “Heç kim Bəni-Qüreyzəyə çatmadan əsr namazını qılmasın!” buyurdu. Yolda olarkən əsr namazının vaxtının çıxdığını görən bir qrup səhabə namazı qılmaq üçün hazırlaşdıqda, digər qrup Peyğəmbərin sözünü xatırladaraq, əsr namazını qılmalarının doğru olmadığını iddia etdi. Namazın vaxtında qılınması lazım olduğunu düşünən səhabələr Həzrət Peyğəmbərin bu sözünü “tez gedin”, “tələsin” mənalarında qəbul edərək zahiri mənanı anlamağın doğru olmadığını dedilər. Ayələrin zahiri mənasına görə hərəkət etməyin nə qədər yanlış olduğunu bilən Həzrət Əli də İbn Abbası xaricilərlə görüşə göndərəndə “Onlarla məsələni müzakirə et, amma əsla Qurandan dəlil gətirmə, çünki Quran çoxmənalıdır” demişdi. İlk baxışda “Qurandan dəlil gətirmə” xəbərdarlığı qəribə görünə bilər. Xaricilərin zahiri mənaya bağlı qalaraq Quranı yanlış anladıqlarını yaxşı bilən Həzrət Əli bu təlimatı verməyi zəruri görmüşdü.

### 3. Dini hökmləri yanlış anlamaq.

Şübhəsiz, dində səmimi olanlar dinin əmrlərini qəsdən yanlış anlamazlar. Hər bir müsəlman dini doğru anlamaq və həyatını Allahın buyurduğu hidayət yoluna uyğun yaşamaq istəyər. Təəssüf ki, bu, həmişə mümkün olmur. Ekstremistlərin dini hökmləri yanlış anlamasına verilən misalların başında “Tövbə” surəsinin 9-cu ayəsi gəlir. Ayədə belə buyurulur: “Haram aylar (onlara möhlət verilmiş zilhiccə, məhərrəm, səfər və rəbiüləvvəl ayları) çıxınca, müşrikləri harada görsəniz, öldürün, yaxalayıb əsir alın, həbs (mühasirə) edin və bütün yollarını – keçidlərini tutun. Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onları sərbəst buraxın (işiniz olmasın). Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!” Bu ayənin konteksti nəzərə alınmadıqda hər bir müsəlmanın qarşılaşdığı bütün qeyri-müsəlmanları öldürməsi lazım olduğu anlaşılır. Əgər bu doğrudursa, nə üçün Həzrət Peyğəmbər və səhabələri qarşılaşdıqları bütün qeyri-müsəlmanları öldürməlidirlər? Bütün İslam şəhərlərində birgə yaşadılar. Haqq-hüquqlarına riayət etdilər. Halbuki ayənin müharibə hüququ ilə bağlı olduğunu və müsəlmanlara döyüş icazəsi verdiyini anlamaq üçün çox da cəhd göstərməyə ehtiyac yoxdur.

### 4. Metodologiya problemi.

Bütün İslam elmlərinin özünəməxsus metodologiyası, üsulu var. Bu metodologiya Quran və Sünnəyə əsaslanan, 14 əsrlik tarixi keçmişi olan, onminlərlə alimin zehnindən süzülüb-gələn, tarixin sınaqlarından çıxan sağlam qaydalardan təşəkkül etmişdir. Bir məsələ haqqında qərar verərkən bu elmlərin mütəxəssislərinin həmin elmlərin möhkəm qanunlarına riayət etmələri tələb olunur. Heç bir üsula əsaslanmadan bir ayə və ya hədisi istədiyi kimi yozumlama və anlama yolunu seçmək arzuolunmaz nəticələrə gətirib çıxarır.

### 5. Orta yoldan uzaqlaşma.

Dini ekstremizmdə fərdin orta yoldan uzaqlaşdırılması əsasdır. Daha mülayim din anlayışı ilə əlaqə qoparılmaldır. Radikal din anlayışının yerləşməsi üçün xarici təsirlərdən izolə edilməlidir. Fərqli din anlayışlarının əldə oluna biləcəyi materiallarla əlaqə kəsilməlidir. Bunun yollarından biri də “digərləri”ni təkfir etməkdir. Xarici təsirlərdən qorunan fərdin lazımi şəkildə təlimləndirilməsi daha asan olur.

### 6. Keçmişi unutdurmaq.

Radikal qrupa qoşulmuş fərdin əvvəlki həyatı ilə əlaqəsi kəsilir. Bu insanla əlaqə qurmaq, yanlış yolda olduğunu bildirmək mümkün olmur. Bundan məqsəd, sadəcə, onunla görüşmə imkanının olmaması deyil, bu imkan əldə edilsə belə, ona çatmaq, onunla dialoq qurmaq olmur. Ekstremistlər haqqında aparılan tədqiqatlar bu insanların çevrəsinin tamamilə dəyişildiyini, hətta ailəsi ilə əlaqəsinin qalmadığını göstərir. Ad dəyişdirməyə qədər gedib-çatan bu proses yeni şəxsiyyətin formalaşmasının mərhələlidir. Bu yeni namizəd üçün dost çevrəsindən alış-veriş edəcəyi adamlara qədər həyatın bütün sahəsini əhatə edən nizam artıq çoxdan qurulmuşdur (Sinanoğlu 2003).

Dini ekstremizm sosial, siyasi, iqtisadi, coğrafi, psixoloji cəhətləri olan və demək olar ki, dünyanın hər yerinə yayılmış qlobal problemdir. Dünyanın inkişaf etmiş ölkələri dini ekstremizmə qarşı müxtəlif cəhətlərdən mübarizə aparır. Bunlardan ən əhəmiyyətlisi hüquqi mübarizədir. Hüquqi sahədə nailiyyət əldə etmək üçün xüsusilə beynəlxalq hüquqda lazımi tədbirlərin alınması lazımdır. Belə məlum olur ki, beynəlxalq qanunlar bu problemin həlli üçün yetərsizdir. Bunun əsas səbəblərindən biri dini ekstremizmin müştərək tərifinin olmamasıdır. Yəni bir ölkənin ekstremist adlandırdığı hər hansı bir qrupu başqa bir dövlət azadlıq hərəkatı və ya bənzəri qruplaşma olaraq görür və hətta dəstəkləyir.

Bu sahə ilə bağlı beynəlxalq müstəvidəki problemlərdən biri də tərəf ölkələrin hamısının qəbul etdiyi bir qanunun olmamasıdır. Bu şəkildə qəbul edilməyən qanunların beynəlxalq statusu və məcburiyyət xüsusiyyəti olmur. Bunun da səbəbi hər bir ölkənin dünyanın müxtəlif yerlərində siyasi və iqtisadi maraqlarının olmasıdır. Beləliklə, bir ölkənin qəbul etdiyi qanunun bu qanunu qəbul etməyən ölkələrə qarşı heç bir sanksiya tətbiq etmək haqqı və imkanı yoxdur (Bekbossynov 2011, 3).

Hüquqi mübarizədə beynəlxalq hüququn yetərsiz olmasına baxmayaraq, dövlətlərin daxili qanunvericiliyində müəyyən tədbirlər alınmışdır. Azərbaycan Respublikasında 05 dekabr 2015-ci ildə 3 fəsil 15 maddədən ibarət olan dini ekstremizmə qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu qanunda dini ekstremizm dini düşmənçilik, dini radikalizm və dini fanatizm kimi təyin olunmuşdur. Dini ekstremizm əleyhinə mübarizədə qanunvericiliyin labüdlüyü ilə birlikdə təkbaşına yetərsizliyi də aşkardır. Burada dini maarifləndirmənin xüsusi əhəmiyyətini qeyd etmək lazımdır. Dini maarifləndirmə həm ekstremizmə meyil edənlərin qarşısını alaraq ekstremistlərin say baxımından azalmasına kömək edər, həm də ekstremist olmayıb onlara rəğbət duyanların düşüncəsini dəyişdirər. Xüsusi olaraq desək, İslamı yanlış yollardan öyrənənlərin qarşısını almağın yolu İslam həqiqətlərini insanlara çatdırmaqdır.

**Nəticə**

Dinin tarix boyunca insan həyatında mühüm yeri olmuşdur. İbtidai cəmiyyətlərdən müasir dövrədək bütün cəmiyyət formalarında müxtəlif formalarda dini anlayışlara rast gəlmək mümkündür. Buna görə də din və cəmiyyət bir-biri ilə yaxın əlaqədə olub, bir-birinə təsir edir. Başqa sözlə desək, din cəmiyyətə, sosial hadisələr də dinə təsir göstərir. Bütövlükdə cəmiyyətə təsir edən sosial hadisələr, yaxud sosial dəyişikliyə səbəb olan paradiqma, mədəni cərəyan və təmayüllər dinə, yaxud dini anlayışa təsir edir. Buna görə də dinin sosial xarakteri nəzər cəlb edir. Qloballaşma, modernizm və dünyəvilik kimi bütün bəşəriyyətə təsir edən proseslər dinə də öz təsirini göstərir. Bütün bunlar qarşısında dindar cəmiyyətlərin mövqeyi eyni olmur. Bəzi cəmiyyətlər öz quruluşundan asılı olaraq yenilikləri və buna bağlı olaraq dəyişiklikləri qarşılamada daha uğurludur. Bəzi cəmiyyətlər isə köklərinə daha sıx bağlanaraq yenilik və dəyişiklikləri təhlükə olaraq görür. Bu isə öz növbəsində, müxtəlif anlayışlara sahib olan dini cərəyanların yaranmasına gətirib çıxarır. Bu cərəyanları, ümumilikdə, ənənəçilər və yenilikçilər olmaqla iki qismə ayırmaq mümkündür. Ənənəçi yanaşmanın müxtəlif təzahürləri olmaqla yanaşı radikal cərəyanların buradan başlandiyini demək mümkündür. Radikalizm də-

yişikliklər qarşısında kökə bağlanmağı çıxış yolu olaraq seçməkdir. Kökə bağlanmaq isə yenilik və dəyişikliklərə qarşı münasibəti təyin edir. Sıx şəkildə kökə bağlanaraq dəyişmək mümkün deyil. Bu isə bəzi hallarda ekstremizmə gətirib çıxarır. Beləliklə, sosial dəyişiklik-ənənəçilik-radikalizm-ekstremizm xəttinin səbəb-nəticə zəncirində formalaşmasından danışmaq mümkündür.

## ƏDƏBİYYAT

Abuzar C. (2011). Dinin Toplumsal Yaşam Üzerindeki Etkisi. Harran Üniversitesi İlahiyat Fakültesi Dergisi, № 26, Temmuz–Aralık.

Akgül M. (1991). Modernleşme Çağında İslam Dünyasının Degişim Süreci ve Din Anlayışında Yaşanan Kırılma (Bir Arka Plan Çözümlemesi). Makalat, № 1.

Akyüz N., Çapcıoğlu İ. (2012). Din ve Toplum İlişkileri. Din Sosyolojisi El Kitabı, Ankara.

Bekbossynov Y. (2011). Birleşmiş Milletler Sisteminde Dini Ekstremizmle Mücadelede Uluslararası Hukuk Sorunları. Akademik Bakış Dergisi, Sayı: 25 Temmuz – Ağustos.

Сафин Р.Ш. (2009). Исламистский Религиозный Экстремизм В Российской Федерации: Уголовно-Правовой И Криминологический Аспекты. Актуальные проблемы экономики и права, № 2 (10).

Demirci A. (1988). Bidatçılık. Erciyes Üniversitesi İlahiyat Fakültesi Dergisi, Kayseri, № 5.

Düzgün A. (2003). Globalizm ve Dini Değerlerdeki Dönüşüm. Dini Araştırmalar, c. 6, № 17.

Добаев И.П. (2002). Исламский Радикализм: генезис, эволюция, практика. Ростов.

Erkal M. (2003). Küreselleşme, Değişme ve Dini Hayat. Dini Araştırmalar, Ankara, c. 6, № 17.

Esposito J. (2002). Unholy War: Terror in the Name of Islam. Oxford University Press.

Fığlalı E. (1972). Hariciliğin Doğuşuna Tesir Eden Bazı Sebepler. Ankara Üniversitesi İlahiyyat Fakültesi Dergisi, c. 20, № 1, Ankara.

Guiora A.N. (2009). Religious Extremism: A Fundamental Danger. South Texas Law Review, vol. 50.

Günay Ü. (1991). Dinin Bireysel ve Toplumsal Boyutu. Ankara Üniversitesi İlahiyat Fakültesi Dergisi, Özül Sayı.

Günay Ü. (1998). İslam Dünyasında Gelenek, Değişme, Modernleşme ve Fundamentalist Eğilimler. Türk Kültürü ve Hacı Bektaş Veli Araştırma Dergisi, № 8.

Hamid T. (2001). The Collected works Of Tawfik Hamid: Observations on Radicalized Islam.

Harman Ö. (2007). Sosyal Değişme ve Dinler, Çağımızda Sosyal Değişme ve İslam. (2002 Yılı Kutlu Doğum Sempozyumu Tebliğ ve Müzakereleri), Ankara.

Jabbour N. (1994). Islamic Fundamentalism: Implications for Missions, International Journal Of Frontier Missions. Vol 11:2 April.

Karaman H. (1996). Fıkıhta Gelenek ve Yenileşme//İslam Gelenek ve Yenileşme Sempozyumu. İstanbul.

Keskin M. (2004). Din ve Toplum İlişkileri Üzerine Bir Genelleme. Dinbilimleri Akademik Araştırma Dergisi IV, № 2.

Kılavuz Murat U. (2002). Küreselleşen Dünyada Din. Uludağ Üniversitesi İlahiyat Fakültesi Dergisi, c. 11, № 2, Bursa.

King M. (2007). Secularism: The Hidden Origins of Disbelief. Cambridge.

Kırca C. Dini İlimleri İhya Hareketi İçinde Gazali'nin Yeri. Erciyes Üniversitesi Cevher Nesibe Tıp Tarihi Enstitüsü, № 7.

Kirman A. (2008). Sekülerleşme Perspektifinden Dini Fundamentalizm//Uluslararası Sosyal Araştırmalar Dergisi = The Journal of International Social Research, № 2.

Mevdudi. (2011). İslamda İhya Hareketleri. Pınar yayınları, İstanbul.

Ortiz R. (2003). Notes on Religion and Globalization. Nepantla: Views from South 4, (1).

Öz S. (2014). Sosyolojik Bir Olgu Olarak Dini İhya Hareketleri. Çukurova Üniversitesi İlahiyat Fakültesi Dergisi, cild 14, № 1.

Özsoy Ö. (1997). Müslümanların yenilenme sorunları ve Kur'an, Değişim Sürecinde İslam. Kutlu doğum haftası: 1996, Ankara.

Richards A. (2003). Socio-Economic Roots of Radicalism? Towards explaining the appeal of islamic radicals, July.

Sezen A. (2008). Üniversite öğrencileri örnekleminde iman gelişimi ve dinsel fundamentalizm arasında ilişkiler üzerine bir çalışma: Doktorluq dis.

Sinanoğlu A. (2003). Globalleşen Dünyada Müslümanların Problemleri. Dinbilimleri Akademik Araştırma Dergisi III, № 1.

Sırma İ. (1991). Sosyal Degişme ve Dini Hayat (Tarihi Bir Değerlendirme). Tartışmalı İlmi Toplantılar Dizisi, İlmi Neşriyat, İstanbul.

Sönmez M. (2001). İhyacılığın Doguşu ve Bazı Önemli Temsilcileri (Gazali, İbn Teymiye, Birgivi ve Muhammed İbn Abdulvahhab'ın İhyacı Yönlerine Kısa Bir Bakış), Ekev Akademi Dergisi c. 3, № 1 (Bahar).

Tekin M. (2006). Bir Sosyal Kontrol Aracı Olarak Ahîlik ve Toplumsal Dinamikleri. Selçuk Üniversitesi İlahiyat Fakültesi Dergisi, № 21, Bahar.

Topal Ş. (2003). İslam ve Küreselleşme: Fırsatlar ve Tehditler. Dini Araştırmalar, c. 6, № 17.

Tümer G. (1996). Dinin Toplum Hayatındaki Yeri ve Önemi. Tartışılan Değerler Açısından Türkiye (Sempozyum 17-18 Haziran 1995), Ankara.

Wiktorowicz Q. (2005). Radical Islam Rising: Muslim Extremism in the West. Rowman & Littlefield Publishers, Oxford.

Yeşilyurt T. (2002). Globalleşen Dünyada Dinin Anlam. İlahiyat Fakulteleri Kelam Anabilim Dalı Egitim-Ögretim Meseleleri Koordinasyonu Toplantısı ve Sempozyumu: Bir Kelam Problemi Olarak Din-Dünya İlişkisi, Gazi Üniversitesi İlahiyat Fakültesi, Çorum.

***д.ф.и., доц. Мубариз Джамалов***

## ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА СОЦИАЛЬНУЮ ПРИРОДУ РЕЛИГИИ И РЕЛИГИОЗНОГО ЭКСТРЕМИЗМА

## РЕЗЮМЕ

Религия была в индивидуальной и общественной жизни человека на протяжении всей истории. Это наиболее очевидный показатель социальной структуры религии. Из-за тесной связи между религией и человеком религия оказывает влияние как на общество, так и на общественные события. В этой статье рассматривается влияние таких факторов, как социальные изменения, глобализация, модернизм и секуляризм на религию и последующие реакции религиозных общин. Эти факторы, которые влияют на религию, часто приводят к возникновению или усилению экстремизма. Поэтому изменения не всегда приветствуются. Те, кто видит изменения как разрушение, выбирают путь к корням религии, и это приводит к радикализму, а затем к экстремизму. Поэтому, когда мы смотрим на историю, мы видим, что религиозный экстремизм совпадает с периодом перемен. В этом случае мы видим, что религия или религиозные общества занимают разные позиции. Это приводит к появлению различных религиозных течений и подходов. Можно разделить эти тенденции и концепции в целом на традиционалистов и тех, кто стремится к инновациям. Хотя существуют различные проявления традиционалистского подхода, можно сказать, что

радикальные тенденции подпитываются здесь. По сути, радикализм заключается в выборе основной причины изменений в качестве выхода. Это в некоторых случаях приводит к экстремизму. Таким образом, можно говорить о формировании линии социальных изменений - традиция - радикализм - экстремизм в причинно-следственной цепочке.

**Ключевые слова:** *Социальные изменения, глобализация, секуляризм, модернизм, радикализм, экстремизм.*

***Assoc. Prof. Mubariz Jamalov***

## FACTORS INFLUENCING THE SOCIAL NATURE OF RELIGION AND RELIGIOUS EXTREMISM

## ABSTRACT

Religion has existed in the individual and social life of human throughout history. This is the most obvious indicator of the social structure of religion. As religion has an impact on society, the influence of social events is also observed. This article examines the effects of factors on religion such as social change, globalization, modernism and secularism and the consequent reactions of religious communities. The factors that influence religion often lead to the emergence and spread of extremism. Therefore, change is not always welcomed. Those who see change as destruction, choose the path bound to the roots of religion. This leads to radicalism and extremism. Therefore, when we look at history, we can see that religious extremism coincides with the change period. In this case, we observe that religion or religious societies take different positions. This leads to the emergence of various religious trends and approaches. It is possible to divide these trends and concepts into two groups: traditionalists and innovators. Radical trends stem from this together with different manifestations of the traditionalist approach. Basically, radicalism is about choosing the root when faced with changes. This in some cases leads to extremism. Thus, it is possible to speak about the formation of the line of social change-tradition-radicalism-extremism in the cause-and-effect chain.

***Keywords:*** *Social change, globalization, secularism, modernism, radicalism, extremism*

**Çapa tövsiyə etdi: s.f.d. A.S.Qənbərov**